**AZƏRBAYCAN RESPUBLİKASI**
**ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ**

**TƏLİMDƏ İNNOVASİYALAR KAFEDRASI**

# XARİCİ DİL BACARIQLARI

**fənni üzrə**

**050112 – Məktəbəqədər təhsil (İngilis dilində)**

***(Ali təhsilin bakalavriatura səviyyəsi üçün)***

# PROQRAM

*Azərbaycan Dillər Universiteti*
*Təhsil - 2 fakültəsi Elmi Şurasının*
*30 noyabr 2021-ci il tarixli*
*iclasının qərarı ilə (pr. № 3)*
*çapa tövsiyə edilmişdir.*

**Bakı – 2022**

**Tərtib etdi:** **Səfərzadə Əminə Ənvər qızı**
*Azərbaycan Dillər Universiteti,*
*Təlimdə innovasiyalar kafedrasının müəllimi*

**Elmi redaktor:** **Ağayeva Hüzürə Fazil qızı**
*Azərbaycan Dillər Universiteti,*
*Təlimdə innovasiyalar kafedrasının baş müəllimi*

**Rəyçilər:** **Alırzayeva Kifayət Ağarza qızı**
*Azərbaycan Dillər Universiteti,*
*İngilis dilinin fonetikası kafedrasının dosenti,*
*filologiya üzrə fəlsəfə doktoru*

**Bağırova Vəfa Süleyman qızı**
*Azərbaycan Dillər Universiteti,*
*Təlimdə innovasiyalar kafedrasının dosenti,*
*pedaqogika üzrə fəlsəfə doktoru*

© ADU, 2022

# İZAHAT VƏRƏQİ

Məktəbəqədər təhsil ixtisasını bitirmiş mütəxəssisin peşə fəaliyyəti erkən və məktəbəqədər yaşlı uşaqların inkişafına, təliminə və tərbiyəsinə yönəldilə bilər. Məzun pedaqoji, təşkilati, idarəetmə, tərbiyəedici fəaliyyətə hazır olmalıdır. Müasir cəmiyyətin tələblərinə uyğun olaraq mütəxəssis yüksək səviyyəli peşəkar hazırlığa, ümumbəşəri dəyərlərə yönəlmiş humanist əqidəyə malik olmalıdır. İxtisas üzrə bakalavr öz peşəsinə mükəmməl yiyələnmək üçün geniş əsaslı və praktiki hazırlığı birləşdirməli, əldə etdiyi bilikləri praktikada tətbiq etməyi bacarmalı, məktəbəqədər təhsil üzrə mütəxəssisin pedaqoji vasitələrinə və iş metodlarına sahib olmalıdır. İxtisas məzunlarının fəaliyyətinin məqsədi məktəbəqədər təhsil müəssisələrinin, uşaq evlərinin praktik işində azyaşlıların təlimi, tərbiyəsi və inkişafıdır.

Bu proqramın məzmunu və strukturu məktəbəqədər təhsil ixtisası üzrə bakalavriatura pilləsində Təlimdə İnnovasiyalar kafedrasında tədris olunan "Xarici dil bacarıqları" fənninin məqsədini, əsas bölmələrini və metodoloji istiqamətlərini özündə əks etdirir.

Bacarıq – icranın vərdiş halı alması ilə xarakterizə olunan bir hərəkətdir. İngilis dili bacarıqları elə bir inkişaf dərəcəsi ilə seçilən nitqi və zehni hərəkətlərdir ki, onlar insan tərəfindən mexaniki olaraq həyata keçirilə bilir.

İngilis dili bacarıqlarına dinləmə, oxuma, yazma və danışma daxildir. Bu səviyyədə tədris olunan materiallar həmin bacarıqları inkişaf etdirmək məqsədini ehtiva edir.

İngilis dilini öyrənərkən biz dil bacarıqlarını inkişaf etdirməyə çalışmalıyıq: ingilis dilini dinləmək, oxuduqlarımızı tam başa düşmək, düzgün yazmaq və fikirlərimizi şifahi şəkildə ifadə etmək bacarığımızı təkminləşdirməliyik.

## FƏNNİN TƏSVİRİ

“Xarici dil bacarıqları” fənni şifahi və yazılı ünsiyyət üçün ingilis dilinin praktiki tətbiqi vərdişlərinin və bacarıqlarının formalaşdırılmasını öyrənmək istəyən tələbələr üçün nəzərdə tutulmuşdur.

Bu mərhələdə tədris həlledicidir. Bu səviyyədə olan tələbələrə onların həvəs və güvənlərini dəstəkləyən materiallar lazımdır. Onlar nə qədər çox öyrəndiklərini və daha nə qədər çox əldə edə biləcəklərini bilməlidirlər. Eyni zamanda, onlara öyrəndikləri dildən istifadə etmək üçün motivasiya lazımdır.

Bu kurs ingilis dilini bir az sərbəst bilən, lakin hələ də qrammatika ilə bağlı problemləri olan və ingilis dilindən istifadə etmək üçün az güvəni olan tələbələr üçün nəzərdə tutulmuşdur.

Bu fənn tələbələrə bakalavriatura müddəti ərzində dili daha da inkişaf etdirməyə imkan verəcək güclü təməl qurmaq üçün nəzərdə tutulub.

“Xarici dil bacarıqları” fənninin akademik saatları ikinci kursun hər iki semestri üzrə 90 saat təşkil edir.

## FƏNNİN MƏQSƏD VƏ VƏZİFƏLƏRİ

- tələbələrin ümumi ingilis dili üzrə bilik və bacarıqlarını genişləndirmək;
- tələbələrin ingilis dilinin qrammatikasına və lüğətinə dair biliklərini yenidən nəzərdən keçirmək və genişləndirmək üçün materiallarla təmin etmək;
- tələbələrin oxu və yazı bacarıqlarını inkişaf etdirmək, mətnin əsas ideyasını nəzərdən keçirərək tapmağı öyrətmək, konkret məlumat üçün mətni skan etmək, kontekstdən məna çıxarmaq bacarıqlarını aşılamaq;
- şifahi və yazılı ingilis dilində düzgünlük və səlisliyi təmin etmək;

• alınan məlumatı başa düşmək və tətbiq etmək üçün tələbələrin dinləmə bacarıqlarını inkişaf etdirmək;

• tələbələrin səlis danışıq qabiliyyətini, özünə inamını və tənqidi təfəkkürünü inkişaf etdirən aydın strukturlaşdırılmış materialları müzakirə etmək;

• ümumi, sosial və peşəkar dildən istifadə etmək, danışıqlar aparmaq, hesabat vermək, izah etmək, ümumiləşdirmək və müzakirəni aparmaq üçün tələbələrin oxu və yazı bacarıqlarını inkişaf etdirmək;

Əsas prinsip tələbələrə bakalavr proqramı çərçivəsində daha da inkişaf etməyə imkan verəcək möhkəm təməl yaratmaqdan ibarətdir. Tələbələri həvəsləndirmək üçün kurs onların akademik performansını artırmaq, müxtəlif kontekstlərdə danışma və dinləmə bacarıqlarını inkişaf etdirmək, tələbələri orta səviyyədə dilin aktiv istifadəçisinə çevirməyə nail olmaq üçün əldə etdikləri yeni bilikləri ünsiyyət fəaliyyəti ilə əlaqələndirəcəkdir.

Kursun əsas məqsədi şifahi və yazılı ingilis dilində düzgün və səlis danışıq qabiliyyətini inkişaf etdirməkdir. Bu məqsədlərə aşağıdakı materialların köməyi ilə tədris prosesində nail olmaq nəzərdə tutulur:

1.“English File” kitabının əsas məqsədi tələbələrin leksik və qrammatik mövzular çərçivəsində dil öyrənmələrinə praktik köməklik göstərmək, mətnlər vasitəsilə tələbələrin şifahi, yazılı nitq bacarıqlarını inkişaf etdirməkdir. Tələbələrin leksik, qrammatik və fonetik biliklərini möhkəmləndirmək üçün dərsliyə çox maraqlı tapşırıqlar daxil edilmişdir.

2.“Oxford Word Skills” kitabı oxu bacarıqlarını inkişaf etdirməyə, onlara məlum olmayan sözlərin mənasını kontekstdən təxmin etməyə imkan verir; tələbələr öyrənir, məşq edir və təkrar edirlər. Bu kitab üç səviyyədən ibarətdir (başlanğıc, orta, çətin). Kitabın hər bir səviyyəsində 80 bölmə (lüğət təqdimatı və tapşırıqlar) var. Bölmələr mövzudan asılı olaraq bir və üç səhifədən ibarətdir. Yeni sözlər öyrənənlər üçün lazımi miqdarda təqdim olunur və möhkəmləndirmək üçün tapşırıqlar verilir. Yeni lüğət müxtəlif mətn növləri, o

cümlədən dialoqlar, cədvəllər və şəkillər vasitəsilə təqdim olunur. Yeni lüğətin mənası şəkillər və ya diaqramlarda göstərilmədiyi halda, onu müşayiət edən lüğətdə izah olunur. Xüsusilə vacib məqamlar "hər kəsin diqqətinə" çərçivəsi ilə vurğulanır. Bölmələr tematik olaraq dörd-doqquz bölmədən ibarət modullarda qruplaşdırılıb. Hər bir modulun sonunda tələbələrin öyrəndikləri söz ehtiyatını yenidən təkrarlama və özlərini test edə bilmələri üçün "təkrar" bölmələrində əlavə praktiki tapşırıqlar verilir.

## FƏNNİN TƏLİM NƏTİCƏLƏRİ

Kursun sonunda tələbələr:

- nümunələr və ya təfərrüatlardan istifadə edərək anlayışları/fikirləri mütəşəkkil şəkildə izah edə biləcəklər;
- hazırlıqsız söhbətdə müxtəlif cümlə modelləri, yeni lüğət və çox tez-tez işlənən idiomlardan istifadə edə biləcəklər;
- müvafiq dərəcədə rəsmi dildən istifadə etməklə sosial ünsiyyətdə iştirak edə biləcəklər;
- gündəlik mövzular haqqında orijinal materiallar oxuya biləcəklər;
- paraqrafı təşkil etmək və yazmaq üçün yazı üsullarından istifadə edə biləcəklər;
- əsas cümlə, dəstəkləyici təfərrüatlar və nəticə strukturunu izləməklə düzgün paraqraf yaza biləcəklər;
- tanış mövzular üzrə məqalələri ümumiləşdirə biləcəklər;
- essenin hissələrini müəyyənləşdirə, paraqrafın məzmununu/ardıcıllığını göstərə biləcəklər.

# MÖVZULARIN SAATLAR ÜZRƏ BÖLGÜSÜ

## Payız semestri üçün
## Xarici dil bacarıqları - 3 fənninin sillabusu

**Kurs: II**
**Semestr: III**
**Saat: 90**
**Dil səviyyəsi: orta ingilis diliLüğət**

| Həftə | Mövzu | Dərs vəsaiti | Saat |
|---|---|---|---|
| **I** | **1A.** Evdə və bayırda qidalanmaq<br>Qrammatika – indiki qeyri-müəyyən və indiki davamedici zaman forması, hərəkət və qeyri-hərəkət bildirən feillər<br>Lüğət – yemək və yeməyin hazırlanması<br>Tələffüz – qısa və uzun sait səslər<br>Danışıq – tərcihlər, razılaşma və razılaşmama<br>Dinləmə – suallardakı açar sözlərin başa düşülməsi, vizual ipuclarından istifadə edərək məzmunun təxmin edilməsi<br>Oxu – mətni başa düşmək üçün şəxsi təcrübəyə əsaslanma | English File | 4 |
| | Bölmə 1. Lüğət | Oxford Word Skills | 2 |
| **II** | 1B. Müasir ailələr<br>Qrammatika – gələcək zaman formaları: indiki davamedici zaman forması, be going to, will / won't<br>Lüğət – ailə, xarakterlə bağlı sifətlər<br>Tələffüz – cümlə vurğusu, söz vurğusu<br>Danışıq – gələcək haqqında danışıq, hekayənin bəhsi | English File | 4 |

| | | | |
|---|---|---|---|
| | Dinləmə – hekayənin başa düşülməsi<br>Oxu – səbəblərin müəyyən edilməsi | | |
| | Bölmə 2. Tərəqqi və məqsədlər | Oxford Word Skills | 2 |
| **III** | İşlək İngilis dili, Epizod 1, İnsanların dediklərinə reaksiya | English File | 2 |
| | Bölmə 3. Lüğət | Oxford Word Skills | 2 |
| | Yoxlama işi (1-ci bölmə) | | 2 |
| **IV** | 2A. Pul<br>Qrammatika – indiki bitmiş zaman və keçmiş sadə zaman formaları<br>Lüğət – pul<br>Tələffüz – “”*o* və “*or”*<br>Danışıq – pul və təcrübə mövzusunda söhbət<br>Dinləmə – faktları müəyyən etmək üçün dinləmə<br>Oxu – paraqrafların başa düşülməsi | English File | 4 |
| | Bölmə 4. Durğu işarələri | Oxford Word Skills | 2 |
| **V** | 2B. Dəyişən həyatlar<br>Qrammatika – indiki bitmiş zaman forması + *for / since*, indiki bitmiş davamedici zaman<br>Lüğət – keyfiyyəti daha da vurğulayan sifətlər. Məsələn: exhausted, amazed və s.<br>Tələffüz – cümlə vurğusu<br>Danışıq – *How long…?,* ekstremal hadisələr haqqında söhbət<br>Dinləmə – fərziyyələrin yoxlanılması, xüsusi məlumatlar üçün dinləmə<br>Oxu – hadisələrin ardıcıllığının müəyyən edilməsi | English File | 4 |

| | | | |
|---|---|---|---|
| | Təkrar | Oxford Word Skills | 2 |
| **VI** | Tapşırıqlar 1&2 | English File | 2 |
| | Bölmə 5. Görünüş | Oxford Word Skills | 2 |
| | Yoxlama işi (2-ci bölmə) | | 2 |
| **VII** | 3A. Gəzinti<br>Qrammatika – müqayisə və üstünlük dərəcəsi arasında seçim<br>Lüğət – nəqliyyat<br>Tələffüz – /ʃ/, /ʤ/ və /ʧ/, bitişdirici<br>Danışıq – turist mövzusunda rollu oyun; fikrin bildirilməsi<br>Dinləmə – proqnozların təsdiqi<br>Oxu – proqnozların təsdiqi | English File | 4 |
| | Bölmə 6. Xarakter | Oxford Word Skills | 2 |
| **VIII** | 3B. Kişilər, qadınlar və uşaqlar<br>Qrammatika – artikl *a / an, the,* aktiklin işlənməməsi<br>Lüğət – söz birləşməsi: feillər / sifərlər + sözönüləri<br>Tələffüz – /ə/, *the*-nin iki tələffüz forması<br>Danışıq – ümumiləşdirmə, uşaqlıq haqqında söhbət<br>Dinləmə – fərqli nöqteyi-nəzərlərin müəyyən edilməsi<br>Oxu – paraqrafdakı əsas fikrin başa düşülməsi | English File | 4 |
| | Bölmə 7. Hisslər | Oxford Word Skills | 2 |
| **IX** | İşlək İngilis dili, Epizod 2, Fikrin bildirilməsi | English File | 2 |

| | | | |
|---|---|---|---|
| | Bölmə 8. Münasibətlər | Oxford Word Skills | 2 |
| | Yoxlama işi (3-cü bölmə) | | 2 |
| **X** | 4A. Davranışlar<br>Qrammatika – öhdəlik və qadağa: *have to, must, should*<br>Lüğət – telefon dili<br>Tələffüz – tələffüz edilməyən (səssiz) samitlər<br>Danışıq – qıcıqlandırıcı vərdiş və davranışlardan bəhs etmə<br>Dinləmə – problemlərin və məsləhətlərin başa düşülməsi<br>Oxu – baxış bucağının qiymətləndirilməsi | English File | 4 |
| | Bölmə 9. Ailələr | Oxford Word Skills | 2 |
| **XI** | 4B. Bacarıq<br>Qrammatika – bacarıq və mümkünlük ifadə edən modal feillər: *can, could, be able to*<br>Lüğət – *-ed / -ing* sifətlər<br>Tələffüz – cümlə vurğusu<br>Danışıq – bacarıqlar, məsləhətlərin qiymətləndirilməsi<br>Dinləmə – nəticə çıxarma, xüsusi məlumat üçün dinləmə<br>Oxu – ipucları və nümunələrin başa düşülməsi | English File | 4 |
| | Bölmə 10. Toy və yas mərasimi | Oxford Word Skills | 2 |
| **XII** | Tapşırıqlar 3&4 | English File | 2 |
| | Təkrar | Oxford Word Skills | 2 |
| | Yoxlama işi (4-cü bölmə) | | 2 |

| | | | |
|---|---|---|---|
| **XIII** | 5A. Batil inanclar<br>Qrammatika – keçmiş zaman formaları: sadə, davamedici, bitmiş<br>Lüğət – idman<br>Tələffüz – /ɔ:/ və /ɜ:/<br>Danışıq – idman haqqında danışıq, lətifə söyləmə<br>Dinləmə – müsahibənin başa düşülməsi<br>Oxu – nümunələrin əsas məqamları necə dəstəklədiyini müəyyən etmə | English File | 4 |
| | Bölmə 11. Kainat | Oxford Word Skills | 2 |
| **XIV** | 5B. Tanışlıq<br>Qrammatika – keçmiş və indiki vərdişlər və vəziyyətlər<br>Lüğət – münasibətlər<br>Tələffüz – *s* hərfi, *used to*<br>Danışıq – indiki və keçmiş vərdişlər haqqında söhbət, fikrin bildirilməsi<br>Dinləmə – hekayənin sonunun təxmin edilməsi, faktların və dəstəkləyici məlumatların başa düşülməsi<br>Oxu – hekayənin sonunun təxmin edilməsi | English File | 4 |
| | Bölmə 12. Çay və dəniz | Oxford Word Skills | 2 |
| **XV** | İşlək İngilis dili, Epizod 3, İcazə və təkliflər | English File | 2 |
| | Yoxlama işi (5-ci bölmə) | | 2 |
| | İmtahana hazırlıq | | 2 |

**Cəmi: 90 saat**

## MÖVZULAR VƏ ONLARIN MƏZMUNU

**I həftə - 6 saat**
Mövzular: Evdə və bayırda qidalanmaq; Lüğət
**II həftə - 6 saat**
Mövzular: Müasir ailələr; Tərəqqi və məqsədlər
**III həftə - 6 saat**
Mövzular: İnsanların dediklərinə reaksiya; Lüğət; Yoxlama işi
**IV həftə - 6 saat**
Mövzular: Pul; Durğu işarələri
**V həftə - 6 saat**
Mövzular: Dəyişən həyatlar; Təkrar
**VI həftə - 6 saat**
Mövzular: Tapşırıqlar; Görünüş; Yoxlama işi
**VII həftə - 6 saat**
Mövzular: Gəzinti; Xarakter
**VIII həftə - 6 saat**
Mövzular: Kişilər, qadınlar və uşaqlar; Hisslər
**IX həftə - 6 saat**
Mövzular: Fikrin bildirilməsi; Münasibətlər; Yoxlama işi
**X həftə - 6 saat**
Mövzular: Davranışlar; Ailələr
**XI həftə - 6 saat**
Mövzular: Bacarıq; Toy və yas mərasimi
**XII həftə - 6 saat**
Mövzular: Tapşırıqlar; Təkrar; Yoxlama işi
**XIII həftə - 6 saat**
Mövzular: Xurafatlar; Kainat
**XIV həftə - 6 saat**
Mövzular: Tanışlıq; Çay və dəniz
**XV həftə - 6 saat**
Mövzular: İcazə və təkliflər; Yoxlama işi; İmtahana hazırlıq

**Yaz semestri üçün**
**Xarici dil bacarıqları - 4 fənninin sillabusu**

**Kurs: II**
**Semestr: IV**
**Saat: 90**
**Dil səviyyəsi: orta ingilis dili**

| **Həftə** | **Mövzu** | **Dərs vəsaiti** | **Saat** |
|---|---|---|---|
| **I** | 6A. Pərdə arxası<br>Qrammatika – bütün zamanların məchul növü<br>Lüğət – kino<br>Tələffüz – qaydalı və qaydasız keçmiş zaman feili sifətləri<br>Danışıq – filmlər haqqında söhbət<br>Dinləmə – məzmuna dair müvafiq sözləri aydınlaşdırmaq və seçmək üçün dinləmə<br>Oxu – paraqrafdakı əsas fikrin başa düşülməsi | English File | 4 |
| | Bölmə 13. İqlim | Oxford Word Skills | 2 |
| **II** | 6B. Hər şəkil bir hekayə danışır<br>Qrammatika – deduksiya modal feilləri: *might, can't, must*<br>Lüğət – bədən<br>Tələffüz – diftonqlar<br>Danışıq – profil şəkilləri haqqında söhbət, deduksiyanın edilməsi<br>Dinləmə – fərziyyələrin yoxlanılması, hadisə ardıcıllığının başa düşülməsi<br>Oxu – yumorun başa düşülməsi, fərziyyələrin yoxlanılması | English File | 4 |
| | Bölmə 14. Təbii fəlakətlər | Oxford Word Skills | 2 |

| | | | |
|---|---|---|---|
| **III** | Tapşırıqlar 5&6 | Engish File | 2 |
| | Bölmə 15. Heyvanlar və həşəratlar | Oxford Word Skills | 2 |
| | Yoxlama işi (6-cı bölmə) | | 2 |
| **IV** | 7A. Yaşa və öyrən<br>Qrammatika – birinci növ şərt budaq cümləsi və gələcək zaman budaq cümlələri + *when, until, etc.*<br>Lüğət – təhsil<br>Tələffüz – *u* hərfi<br>Danışıq – məktəb haqqında söhbət, fikirlərin qiymətləndirilməsi<br>Dinləmə – rəqəmləri tapmaq üçün dinləmə<br>Oxu – baxış nöqtələrinin müqayisə edilməsi | English File | 4 |
| | Bölmə 16. Yeməklər | Oxford Word Skills | 2 |
| **V** | 7B. Ana və atanın oteli<br>Qrammatika – ikinci növ şərt budaq cümləsi, şərt budaq cümlələri arasında seçim<br>Lüğət – evlər<br>Tələffüz – cümlə vurğusu, *c* hərfi<br>Danışıq – müsbət və mənfi cəhətlərin müzakirə edilməsi, ideal vəziyyətlərin təsvir edilməsi<br>Dinləmə – məzmunu anlamaq üçün proqnozlardan istifadə edilməsi<br>Oxu – müsbət və mənfi cəhətlərin müəyyən edilməsi | English File | 4 |
| | Bölmə 17. Pəhriz və yemək hazırlama | Oxford Word Skills | 2 |
| **VI** | İşlək İngilis dili, Epizod 4, Təkliflər və cavablar, bəhanə və üzr | English File | 2 |

| | | | |
|---|---|---|---|
| | Bölmə 18. Pul | Oxford Word Skills | 2 |
| | Yoxlama işi (7-ci bölmə) | | 2 |
| **VII** | 8A. İş<br>Qrammatika – cerund və məsdər arasında seçim<br>Lüğət – iş<br>Tələffüz – söz vurğusu<br>Danışıq – təqdimatın edilməsi<br>Dinləmə – dinləyərək qeydlərin edilməsi<br>Oxu – sübutlardan təxmin etmə | English File | 4 |
| | Bölmə 19. Yuxu | Oxford Word Skills | 2 |
| **VIII** | 8B. Gözəl gün<br>Qrammatika – vasitəli nitq: nəqli cümlə və sual cümlələri<br>Lüğət – alış-veriş, feillərdən isimlərin düzəlməsi<br>Tələffüz – ai hərfləri<br>Danışıq – alış-veriş vərdişlərindən bəhs etmək<br>Dinləmə – hadisələrin ardıcıllığını, münasibət və tonu başa düşmək<br>Oxu – hekayənin sonunu təxmin etmək | English File | 4 |
| | Bölmə 20. Zədələr | Oxford Word Skills | 2 |
| **IX** | Tapşırıqlar 7&8 | English File | 2 |
| | Bölmə 21. Avtomobil və sürücülük | Oxford Word Skills | 2 |
| | Yoxlama işi (8-ci bölmə) | | 2 |
| **X** | 9A. Görüşlər<br>Qrammatika – üçüncü növ şərt budaq cümləsi | English File | 4 |

| | | | |
|---|---|---|---|
| | Lüğət – sifətlərin və zərflərin düzəldilməsi<br>Tələffüz – cümlə ritmi, *have*-in zəif tələffüz edilməsi<br>Danışıq – şans haqqında söhbət<br>Dinləmə – ümumiləşdirmək üçün dinləmə<br>Oxu – əsas fikri ifadə edən cümlələrin başa düşülməsi | | |
| | Bölmə 22. Səyahət problemləri və qəzalar | Oxford Word Skills | 2 |
| **XI** | 9B. Rəqəmsal detoks<br>Qrammatika – kəmiyyət göstəriciləri<br>Lüğət – elektron cihazlar<br>Tələffüz – bitişdirici, *ough* və *augh*<br>Danışıq – rəqəmsal vərdişlərin müzakirə edilməsi<br>Dinləmə – münasibətin anlaşılması<br>Oxu – texniki dilin başa düşülməsi | English File | 4 |
| | Bölmə 23. Geyim və moda | Oxford Word Skills | 2 |
| **XII** | İşlək İngilis dili, Epizod 5, Dolayı suallar vermək | English File | 2 |
| | Bölmə 24. Diş həkimində | Oxford Word Skills | 2 |
| | Yoxlama işi (9-cu bölmə) | | 2 |
| **XIII** | 10A. Bütlər və nişanlar<br>Qrammatika – təyin budaq cümlələri: təyin edən və təyin etməyən<br>Lüğət – mürəkkəb isimlər<br>Tələffüz – söz vurğusu<br>Danışıq – heyran olduğunuz insanlar və şeylər haqqında söhbət<br>Dinləmə – faktlar üçün dinləmə<br>Oxu – məqsədli oxu | English File | 4 |

| | | | |
|---|---|---|---|
| | Bölmə 25. Xəstəxana prosedurları | Oxford Word Skills | 2 |
| **XIV** | 10B. Qatil<br>Qrammatika – ayırıcı suallar<br>Lüğət – cinayət<br>Tələffüz – ayırıcı suallarda intonasiya<br>Danışıq – polis müsahibəsi mövzusunda rollu oyun<br>Dinləmə – qeydlərin aparılması<br>Oxu – anlama, istinad vermə | English File | 4 |
| | Bölmə 26. Ev işləri | Oxford Word Skills | 2 |
| **XV** | Tapşırıqlar 9&10 | English File | 2 |
| | Yoxlama işi (10-cu bölmə) | | 2 |
| | İmtahana hazırlıq | | 2 |

**Cəmi: 90 saat**

# MÖVZULAR VƏ ONLARIN MƏZMUNU

**I həftə - 6 saat**
Mövzular: Pərdə arxası; İqlim
**II həftə - 6 saat**
Mövzular: Hər şəkil bir hekayə danışır; Təbii fəlakətlər
**III həftə - 6 saat**
Mövzular: Tapşırıqlar; Heyvanlar və həşəratlar; Yoxlama işi
**IV həftə - 6 saat**
Mövzular: Yaşa və öyrən; Yeməklər
**V həftə - 6 saat**
Mövzular: Ana və atanın oteli; Pəhrizlər və yemək hazırlama
**VI həftə - 6 saat**
Mövzular: Təkliflər və cavablar, bəhanə və üzr; Pul; Yoxlama işi
**VII həftə - 6 saat**
Mövzular: İş; Yuxu
**VIII həftə - 6 saat**
Mövzular: Gözəl gün; Zədələr
**IX həftə - 6 saat**
Mövzular: Tapşırıqlar; Avtomobil və sürücülük; Yoxlama işi
**X həftə - 6 saat**
Mövzular: Görüşlər; Səyahət problemləri və qəzalar
**XI həftə - 6 saat**
Mövzular: Rəqəmsal detoks; Geyim və moda
**XII həftə - 6 saat**
Mövzular: Dolayı suallar vermək; Diş həkimində; Yoxlama işi
**XIII həftə - 6 saat**
Mövzular: Bütlər və nişanlar; Xəstəxana prosedurları
**XIV həftə - 6 saat**
Mövzular: Qatil; Ev işləri
**XV həftə - 6 saat**
Mövzular: Tapşırıqlar; Yoxlama işi; İmtahana hazırlıq

## ƏDƏBİYYAT


**İngilis dilində**

1. Latham-Koenig, C., Oxenden, C., Lambert, J. (2019). English File: Intermediate: Student's Book; 4th edition. Oxford, U.K.: Oxford University Press.

2. Latham-Koenig, C., Oxenden, C., Lambert, J., & Hudson, J. (2019). English File: Intermediate: Workbook; 4th edition. Oxford, U.K.: Oxford University Press.

3. Gairns, R. and Redman, S. (2008). Oxford word skills: Intermediate. Oxford University Press.

**İnternet resursları**

1. https://www.oxfordlearnersdictionaries.com/
2. https://fliphtml5.com/tsaoo/ftvy
3. http://elibrary.bsu.edu.az/files/books_250/N_136.pdf

Çapa imzalanıb: 06.09.2022.
Format: 60x84 1/16. Qarnitur: Times.
Həcmi: 1, 25 ç.v. Tiraj: 100. Sifariş № 138.

**TƏRCÜMƏ
VƏ NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ**

Az 1014, Bakı, Rəsul Rza küç., 125/139b
Tel./faks 596 21 44
*e-mail: mutarjim@mail.ru*
www.mutercim.az